**Azərbaycan Respublikası Prezidentinin 03 aprel 2009 – cu il tarixli "Bakı şəhərinin yaşıllaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamının icrası ilə əlaqədar ETSN Meşələrin İnkişafı Departamenti, Topogeodeziya və Meşə Quruluşu Ekspedisiyası tərəfindən görülən işlər**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Bakı şəhərinin yaşıllaşdırılması sahəsində əlavə tədbirlər haqqında" 03 aprel 2009 – cu il tarixli Sərəncamının icrası ilə əlaqədar Əzizbəyov - Heydər Əliyev Beynəlxalq Hava Limanı magistral-avtomobil yolunun yaşıllaşdırılması ilə bağlı 15 milyon manat dəyərində layihə smeta sənədləri hazırlanmış və Fövqəladə Hallar Nazirliyinin Ekspertiza İdarəsi tərəfindən təsdiq olunmuşdur.

Bununla əlaqədar Nazirliyə 5,0 (beş) milyon manat məbləğində vəsait ayrılmışdır ki, bu vəsaitin də 18 faizini (762 712 manat) ƏDV təşkil edir.

Həmin vəsait hesabına aşağıdakı işlər görülmüşdür.

Tender keçirilməsi üçün www.tender.gov.az saytında və "Azərbaycan"qəzetində müxtəlif vaxtlarda 4 dəfə elan verilmiş, Maliyyə və İqtisadi İnkişaf Nazirliklərinin iştirakı ilə açıq tender proseduru keçirilmiş və başqa satınalmalarla bağlı Dövlət Satınalma Agentliyinə müraciət olunaraq müvafiq razılıq alınmışdır. Nəticədə "NJT-2000", "Təmir-Tikinti M" MMC və başqa şirkətlər ilə müvafiq müqavilələr bağlanmışdır.

Bu müqavilələr əsasında Bakı-Heydər Əliyev Beynəlxalq Hava Limanı magistral-avtomobil yolunun yenidən qurulması və ərazidəki obyektlərin oradan köçürülməsindən sonra 14,3 km məsafədə bərbad hala düşmüş 161 hektar ərazi 703 min ton inşaat, neft və kimyəvi tullantılardan təmizlənərək, ərazidən daşınmış neytral materiallar Zığ gölünün ətrafındakı gölməçələrin, xəndəklərin, dərin kanalların doldurulmasına istifadə olunmuşdur. Bu işlərə və əraziyə sağlam torpaq gətirilməsinə 2761,4 min manat sərf olunmuşdur. Torpaqların yük maşınlarına yüklənməsinə, gətirilmiş torpağın yayılmasına, çökəkliklərin bulduzerlə hamarlanmasına 225 min manat, ayrı-ayrı rayonlardan əraziyə daşınmış 14520 $m^3$ üzvi gübrəyə 279,4 min manat vəsait xərclənmişdir (ərazidə 8-9 ay ərzində 30-35 ədəd xüsusi təyinatlı texnikadan istifadə olunmuşdur). Həmin ərazinin suvarılması üçün qazılmış 13 ədəd subartezian quyusu və 1 km məsafədən çəkilmiş elektrik xətti üçün 306 min manat vəsait xərclənmişdir. Ərazinin Bülbülə qəsəbəsi və Heydər Əliyev Beynəlxalq Hava Limanından çəkilmiş iki istiqamətdən suvarma xətləri vasitəsilə fasiləsiz olaraq su ilə təmin olunması məqsədilə su xəttinin çəkilməsinə, nasosxanaların inşasına, avadanlığın alınmasına, 1-1,5 metr dərinlikdə xəndəklər qazılmasına, ümumilikdə 72 km uzunluğunda boruların alınmasına 936,2 min manat vəsait xərclənmişdir.

Bu hazırlıq işləri görüldükdən sonra əraziyə 71000 $m^2$ qazon gətirilmiş və müvafiq suvarma aqreqatları quraşdırılmış, çoxlu sayda xaricdən gətirilmiş dekorativ gül kolları əkilmiş, qazon və əkinlərə qulluq göstərmək üçün müvafiq texnika alınmışdır. Bu işlərə 248,5 min manat vəsait xərclənmişdir.

Bundan sonra, 161 hektar ərazidə 167 min ədəd çala qazılmış (çalaların qazılmasına 51,5 min manat vəsait xərclənmişdir), həmin çalalara üzvi gübrə

verilməklə 167 min ədəd müxtəlif növ ağac və kol bitkisi əkilmiş, əkilmiş ağaclar hər biri xüsusi dayaqlara bərkidilmişdir. Əkilən 167 min ədəd ağacdan 31900 ədədi Türkiyə, İtaliya, İrandan gətirilimiş (zeytun, ardıc, filbahar, sidr, tuya, ileks, top akasiya, şumşad, dəfnəyarpaq, leylandı, palma və s. qiymətli ağac və kol cinsləri), 95 500 ədədi daxili bazardan alınmış, 39600 ədədi isə əvəzsiz olaraq Nazirliyin tinglik sahələrində yetişdirilmiş ağaclar hesabına olmuşdur (xaricdən gətirilmiş ağaclardan tuya 14,7 manat, leylandı 19,48 manat, sidr 5,31 manat, palma 15 manat, İtaliyadan gətirilmiş hündürlüyü 1,2 metrdən uca 3-4 illik, kök sistemi qapalı xüsusi məhsuldarlığa malik zeytun 12,59 manat və s. qiymətindədir), 1,75 manat dəyərində 1,0 metrədək boyu olan 20 min ədəd zeytun Türkiyədən gətirilmiş, digər ağaclar isə orta hesabla 2- 2,5 manat məbləğində olmaqla daxili bazardan alınmışdır. Ərazidə yüksək estetik tələblərə cavab verən dekorativ ağaclar da alınıb əkilmişdir. Bütün bunlara 485260 manat xərclənib. Görülmüş işlərə görə 293260 manat vəsait ödənilməmiş qalır.

Hazırda həmin ərazilərdə 96 faiz bitiş alınmışdır. Qeyd edək ki, xaricdən müqavilə əsasında gətirilən ağaclar müqavilənin şərtlərinə görə quruduqda satıcı şirkət tərəfindən dəyəri ödənilmədən yenisi ilə əvəz olunur və ağacların əvəz olunmasına şirkət özü məsuliyyət daşıyır.